# “DÖVLƏT MƏŞĞULLUQ AGENTLİYİ” PUBLİK HÜQUQİ ŞƏXS

**Maliyyə Hesabatlarının Beynəlxalq Standartları əsasında Hazırlanmış İlkin Konsolidasiya olunmuş Maliyyə Hesabatları və Müstəqil Auditorların Rəyi**

31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə

## 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ İLKİN KONSOLİDASİYA OLUNMUŞ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI

Bu bəyannamə "Dövlət Məşğulluq Agentliyi" Publik Hüquqi şəxsin (bundan sonra "Agentlik") və onun tabeliyində olan qurumların (birlikdə "Qrup") Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ("MHBS") əsasında hazırlanmış ilkin konsolidasiya olunmuş maliyyə hesabatları ilə bağlı rəhbərliyin və müstəqil auditorların göstərilən məsuliyyətlərini fərqləndirmək məqsədi ilə hazırlanmışdır.

Rəhbərlik, 31 dekabr 2022-ci il tarixinə ilkin konsolidasiya olunmuş tam maliyyə hesabatlarını ilk dəfə hazırlamaq məqsədilə, 31 dekabr 2021-ci il tarixinə Qrupun ilkin konsolidasiya olunmuş maliyyə vəziyyətini əks etdirən, Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun hazırlanmış konsolidasiya olunmuş maliyyə vəziyyəti haqqında ilkin hesabatın standartlar və şərhlər, qüvvəyə minməsi gözlənilən ehtimallar və tətbiq edilməsi gözlənilən qaydalar da daxil olmaqla, 1 saylı MHBS-yə uyğun olaraq MHBS-in necə tətbiq edildiyini əks etdirən və 2 saylı Qeyddə göstərilən "Hesabatların uyğunluğunun bəyanı" üzrə, ilkin konsolidasiya olunmuş maliyyə hesabatlarına uyğun hazırlanması üzrə məsuliyyət daşıyır.

İlkin konsolidasiya olunmuş maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Konsolidasiya olunmuş maliyyə hesabatlarının MHBS-yə müvafiq hazırlanması və ya əgər hər hansı bir kənarlaşma varsa, onun ilkin konsolidasiya olunmuş maliyyə hesabatlarında bəyan edilməsi və izahı;
- Yaxın gələcəkdə Qrup işini normal şərtlər altında davam etdirdiyi halda, hesabat tarixinə ilkin konsolidasiya olunmuş maliyyə hesabatlarının daimilik prinsipi əsasında hazırlanması.

Rəhbərlik həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Qrup daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Qrupun ilkin konsolidasiya olunmuş maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq düzgün hazırlanması və Qrupun ilkin konsolidasiya olunmuş maliyyə hesabatlarını istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Qrupun aktivlərinin mühafizə edilməsinin təşkil olunması; və
- Saxtakarlıq, yanlışlıq və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2021-ci il tarixinə ilkin konsolidasiya olunmuş maliyyə hesabatları 1 sentyabr 2022-ci il tarixində Qrupun rəhbərliyi tərəfindən təsdiq edilmişdir.

**Rəhbərlik tərəfindən:**

**Mustafa Abbasbəyli**
**İdarə heyətinin sədri**

1 sentyabr 2022-ci il
Bakı, Azərbaycan Respublikası

**Yuliya Pasternak**
**Maliyyə direktoru**

1 sentyabr 2022-ci il
Bakı, Azərbaycan Respublikası

City Point Baku, 9th floor
J. Mammadguluzadeh str., 102A
Baku, AZ1022, Azerbaijan

**T:** +994 (12) 404 7 666
**F:** +994 (12) 404 7 667

office@bakertilly.az
**www.bakertilly.az**

## MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

"Dövlət Məşğulluq Agentliyi" Publik Hüquqi şəxsin Təsisçisi və Rəhbərliyinə:

***Şərti Müsbət Rəy***

Biz "Dövlət Məşğulluq Agentliyi" Publik Hüquqi şəxsin (bundan sonra "Agentlik") və onun tabeliyində olan qurumların (birlikdə "Qrup") 31 dekabr 2021-ci il tarixinə təqdim edilən konsolidasiya olunmuş maliyyə vəziyyəti haqqında ilkin hesabatdan, həmin tarixdə başa çatmış il üzrə konsolidasiya olunmuş xalis xərclər haqqında ilkin hesabatdan, konsolidasiya olunmuş xalis aktivlərdə dəyişikliklər haqqında ilkin hesabatdan və konsolidasiya olunmuş pul vəsaitlərinin hərəkəti haqqında ilkin hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri və digər izahedici qeydlərdən ibarət olan ilkin konsolidasiya olunmuş maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizə əsasən, Şərti Müsbət Rəy üçün Əsas paraqrafında təsvir olunan məsələnin təsiri istisna olmaqla, əlavə edilmiş ilkin konsolidasiya olunmuş maliyyə hesabatları 31 dekabr 2022-ci il tarixinə MHBS əsasında tam konsolidasiya olunmuş maliyyə hesabatlarını ilk dəfə hazırlamaq məqsədilə, standartlar və şərhlər haqqında effektiv olması gözlənilən ehtimallar və tətbiq edilməsi gözlənilən qaydalar da daxil olmaqla, 1 saylı MHBS-yə uyğun olaraq, MHBS-nin necə tətbiq edildiyini əks etdirən və 2 saylı Qeyddə göstərilən "Təqdimatın əsasları" üzrə 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə ilkin konsolidasiya olunmuş maliyyə hesabatlarının hazırlanması qaydalarına uyğun şəkildə hazırlanmışdır.

***Şərti Müsbət Rəy üçün Əsas***

*Əmlak, tikili və avadanlıqlar*

31 dekabr 2021-ci il tarixinə Qrupun əmlak, tikili və avadanlıqlarının "Binalar" kateqoriyasında əks olunan ümumi qalıq dəyəri 10,589,897 AZN olan əmlaklar ilkin tanınma anında ədalətli dəyər ilə deyil, Qrupun balansına keçidi zamanı əmlakı Qrupa əvəzsiz təqdim edən qurumun mühasibatlıq qalıq dəyəri ilə ölçülmüşdür. Əlavə olaraq, Qrup əmlak, tikili və avadanlıqların və qeyri-maddi aktivlərin dəyərsizləşməsi ilə bağlı hesablama həyata keçirməmişdir. Müvafiq olaraq, Qrupun balansına ötürülmüş əmlakların ilkin tanınması və sonradan ölçülməsi, onun xalis aktivlərə, xalis xərclərə təsiri ilə bağlı əminlik qeyri-qənaətbəxş hesab edilir.

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "İlkin Konsolidasiya olunmuş Maliyyə Hesabatlarının Auditi üçün Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Biz konsolidasiya olunmuş maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Qrupdan asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları şərti müsbət rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.



Baker Tilly Audit Azerbaijan CJSC trading as Baker Tilly is a member of the global network of Baker Tilly International Ltd., the members of which are separate and independent legal entities.

*İzahedici Paraqraf*

**Təqdimatın əsasları**

Biz, ilkin konsolidasiya olunmuş maliyyə hesabatlarına əlavə edilmiş 2 saylı Qeydə diqqət yetirmişik. Bu Qeyd ilkin konsolidasiya olunmuş maliyyə hesabatlarına ilkin konsolidasiya olunmuş maliyyə hesabatlarının tam dəstini təşkil etməzdən əvvəl düzəlişlərin edilməsi tələb oluna biləcəyi ehtimalını izah edir. Bundan əlavə, biz, MHBS-yə uyğun olaraq Qrupun maliyyə vəziyyətini, əməliyyatların nəticələrini və pul vəsaitlərinin hərəkətinin ədalətli şəkildə təqdimatını MHBS üzrə müqayisəli maliyyə məlumatları və izahedici qeydlər ilə yalnız maliyyə hesabatlarının tam toplusunun təmin edə biləcəyinə diqqət yetirmişik. Bu məsələ ilə bağlı rəyimiz şərti deyildir.

***İlkin Konsolidasiya olunmuş Maliyyə Hesabatlarına görə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri verilmiş Şəxslərin Məsuliyyəti***

Rəhbərlik Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ("MHBS") əsasında hazırlanmış ilkin konsolidasiya olunmuş maliyyə hesabatlarının 31 dekabr 2022-ci il tarixinə MHBS əsasında ilkin konsolidasiya olunmuş maliyyə hesabatlarını ilk dəfə hazırlanarkən, standartlar və şərhlər, qüvvəyə minməsi gözlənilən ehtimallar və tətbiq edilməsi gözlənilən qaydalar da daxil olmaqla, 1 saylı MHBS əsasında MHBS-in necə tətbiq edildiyini əks etdirən və 2 saylı Qeyddə göstərilən "Hesabatların uyğunluğunun bəyanı" üzrə MHBS əsasında ilkin konsolidasiya olunmuş maliyyə hesabatları ilə uyğun hazırlanması və təqdim olunması üzrə məsuliyyət daşıyır. Rəhbərlik eyni zamanda ilkin konsolidasiya olunmuş maliyyə hesabatlarının hazırlanması ilə əlaqədar, saxtakarlıq və ya səhvlərdən qaynaqlanan əhəmiyyətli təhriflərin qarşısının alınması məqsədi ilə rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminin təşkil edilməsinə görə məsuliyyət daşıyır.

İlkin konsolidasiya olunmuş maliyyə hesabatları tərtib edildikdə, rəhbərlik Qrupu ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri verilmiş şəxslər Qrupun maliyyə hesabatları prosesinə nəzarət etmək üçün məsuliyyət daşıyır.

***İlkin konsolidasiya olunmuş maliyyə hesabatlarının Auditi üzrə Auditorun Məsuliyyəti***

Bizim məqsədimiz ilkin konsolidasiya olunmuş maliyyə hesabatlarında bir tam kimi, saxtakarlıq və ya xətalar nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, BAS-a uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə hazırlanmış ilkin konsolidasiya olunmuş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

BAS-ın tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- İlkin konsolidasiya olunmuş maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində yaranmış əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edib qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Saxtakarlıq nəticəsində yaranmış əhəmiyyətli təhrifi aşkarlamamaq riski xətalar nəticəsində yaranmış təhrifi aşkarlamamaq riskindən daha yüksəkdir, çünki, saxtakarlıq əlbir hərəkətlər, dələduzluq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Qrupun daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Qrupun fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda ilkin konsolidasiya olunmuş maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Qrupun fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, ilkin konsolidasiya olunmuş maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin ilkin konsolidasiya olunmuş maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz idarəetmə səlahiyyətləri verilmiş şəxslərə digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

Baker Tilly Azerbaijan

1 sentyabr 2022-ci il
Bakı, Azərbaycan Respublikası

## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA İLKİN KONSOLİDASİYA OLUNMUŞ HESABAT
## 31 DEKABR 2021-Cİ İL TARİXİNƏ
*(Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2021-ci il | 1 yanvar 2021-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər:** | | | |
| Əmlak, tikili və avadanlıqlar | 8 | 17,674,848 | 13,091,887 |
| Qeyri-maddi aktivlər | 9 | 2,817,511 | 689,366 |
| Uzunmüddətli aktivlər üzrə avans ödənişləri | 10 | 300,501 | - |
| **Cəmi uzunmüddətli aktivlər** | | **20,792,860** | **13,781,253** |
| **Cari aktivlər:** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 11 | 66,179,843 | 49,754,663 |
| Mal-material ehtiyatları | 12 | 7,429,097 | 15,098,617 |
| Verilmiş avanslar | 13 | 4,721,605 | 4,340,407 |
| Digər aktivlər | 14 | 8,002,729 | 1,654 |
| **Cəmi cari aktivlər** | | **86,333,274** | **69,195,341** |
| **CƏMİ AKTİVLƏR** | | **107,126,134** | **82,976,594** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| **ÖHDƏLİKLƏR:** | | | |
| **Uzunmüddətli öhdəliklər:** | | | |
| İcarə öhdəliyi | 15 | 47,075 | - |
| Digər öhdəliklər | 16 | 160,914 | - |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **207,989** | **-** |
| **Cari öhdəliklər:** | | | |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 17 | 209,671 | 109,822 |
| İcarə öhdəliyi | 15 | 47,105 | - |
| Digər öhdəliklər | 16 | 19,361 | - |
| Əmək haqqı üzrə öhdəliklər | | 115,279 | 4,248 |
| **Cəmi cari öhdəliklər** | | **391,416** | **114,070** |
| **Cəmi öhdəliklər** | | **599,405** | **114,070** |
| **KAPİTAL:** | | | |
| Nizamnamə kapitalı | 18 | 5,000,000 | 5,000,000 |
| Ümumi fond | | 101,526,729 | 77,862,524 |
| **Cəmi kapital** | | **106,526,729** | **82,862,524** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **107,126,134** | **82,976,594** |

**Rəhbərlik tərəfindən:**

**Mustafa Abbasbəyli**
**İdarə heyətinin sədri**

1 sentyabr 2022-ci il
Bakı, Azərbaycan Respublikası

**Yuliya Pasternak**
**Maliyyə direktoru**

1 sentyabr 2022-ci il
Bakı, Azərbaycan Respublikası

9-34-cü səhifələrdə verilmiş qeydlər ilkin konsolidasiya olunmuş maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## "DÖVLƏT MƏŞĞULLUQ AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXS

### XALİS XƏRCLƏR HAQQINDA İLKİN KONSOLİDASİYA OLUNMUŞ HESABAT
### 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| **MƏSRƏF VƏ XƏRCLƏR:** | | |
| Əməliyyat xərcləri | 19 | (73,794,225) |
| Ümumi və inzibati xərclər | 20 | (22,703,921) |
| **ƏMƏLİYYAT XƏRCLƏRİ:** | | **(96,498,146)** |
| Maliyyə xərcləri | 15 | (4,828) |
| Digər gəlirlər | 21 | 80,294 |
| **İL ÜZRƏ XALİS XƏRCLƏR** | | **(96,422,680)** |
| **İL ÜZRƏ CƏMİ XALİS XƏRCLƏR** | | **(96,422,680)** |

**Rəhbərlik tərəfindən:**

**Mustafa Abbasbəyli**
**İdarə heyətinin sədri**

1 sentyabr 2022-ci il
Bakı, Azərbaycan Respublikası

**Yuliya Pasternak**
**Maliyyə direktoru**

1 sentyabr 2022-ci il
Bakı, Azərbaycan Respublikası

9-34-cü səhifələrdə verilmiş qeydlər ilkin konsolidasiya olunmuş maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## "DÖVLƏT MƏŞĞULLUQ AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXS

### XALİS AKTİVLƏRDƏ DƏYİŞİKLİKLƏR HAQQINDA İLKİN KONSOLİDASİYA OLUNMUŞ HESABAT 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

*(Azərbaycan Manatı ilə)*

| | Qeydlər | Nizamnamə kapitalı | Ümumi fond | Cəmi kapital |
|---|---|---|---|---|
| **1 yanvar 2021-ci il** | | **5,000,000** | **77,862,524** | **82,862,524** |
| İşsizlikdən sığorta haqqı üzrə daxilolmalar | 6 | - | 147,000,000 | 147,000,000 |
| İl üzrə cəmi xalis xərclər | | - | (96,422,680) | (96,422,680) |
| Hökumət və ya hökumətin nəzarət etdiyi qurumlarla hesablaşmalar | 6 | - | (26,913,115) | (26,913,115) |
| **31 dekabr 2021-ci il** | | **5,000,000** | **101,526,729** | **106,526,729** |

**Rəhbərlik tərəfindən:**

**Mustafa Abbasbəyli**
**İdarə heyətinin sədri**

1 sentyabr 2022-ci il
Bakı, Azərbaycan Respublikası

**Yuliya Pasternak**
**Maliyyə direktoru**

1 sentyabr 2022-ci il
Bakı, Azərbaycan Respublikası

9-34-cü səhifələrdə verilmiş qeydlər ilkin konsolidasiya olunmuş maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA İLKİN KONSOLİDASİYA OLUNMUŞ HESABAT
## 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN AXINI:** | | |
| Təchizatçılara ödənişlər | | (63,144,843) |
| İşçilərlə bağlı öhdəliklərin ödənilməsi | | (19,442,964) |
| İşsizlik sığortası üzrə ödənişlər | | (5,152,729) |
| Bank komissiyaları ödənişləri | | (98,136) |
| Digər gəlirlər üzrə daxilolmalar | | 53,240 |
| **Əməliyyat fəaliyyəti üzrə istifadə olunan xalis pul vəsaitləri** | | **(87,785,432)** |
| Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklər: | | |
| Məhdudlaşdırılmış pul vəsaitləri | | (8,000,000) |
| **İNVESTİSİYA FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN AXINI:** | | |
| Əmlak, tikili və avadanlıqların satın alınması üzrə ödənişlər | | (7,820,881) |
| **İnvestisiya fəaliyyəti üzrə istifadə olunan xalis pul vəsaitləri** | | **(7,820,881)** |
| **MALİYYƏ FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN AXINI:** | | |
| İşsizlikdən sığorta haqqı üzrə daxilolmalar | | 147,000,000 |
| Ümumi nəzarətdə olan qurumlara ödəniş | | (25,600,905) |
| Ümumi nəzarətdə olan qurumların təchizatçılarına ödəniş | | (1,337,472) |
| İcarə öhdəliyi üzrə əsas ödəniş | 15 | (25,302) |
| İcarə öhdəliyi üzrə faiz ödənişi | 15 | (4,828) |
| **Maliyyə fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri** | | **120,031,493** |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİNDƏ XALİS ARTMA | | 16,425,180 |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin əvvəlinə* | | 49,754,663 |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin sonuna* | | 66,179,843 |

**Rəhbərlik tərəfindən:**

**Mustafa Abbasbəyli**
**İdarə heyətinin sədri**

1 sentyabr 2022-ci il
Bakı, Azərbaycan Respublikası

**Yuliya Pasternak**
**Maliyyə direktoru**

1 sentyabr 2022-ci il
Bakı, Azərbaycan Respublikası

9-34-cü səhifələrdə verilmiş qeydlər ilkin konsolidasiya olunmuş maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.